

*Sevindik Nəsiboğlu*
*AJB-nin üzvü*

# VƏTƏNİN YENİLMƏZ İGİDİ YUSİF

**(Əvvəli ötən sayımızda)**

Yusif və Asif əsgər yoldaşları ilə çiyin-çiyinə Vətən torpağı uğrunda döyüşür, Yasin isə onların ayağına bir daşın belə dəyməməsi üçün əlindən gələni əsirgəmir, onlara sonadək yardım edirdi.

Lakin bir gün çox dəhşətli bir faciə baş verdi. Döyüşlərin gedişatında Yusifin qardaşı Asif minaya düşdü. Bu, onun qardaşı Yasinin gözünün qabağında baş vermişdi. Yasin gördükləri qarşısında sarsılsa da bir an belə düşünməyərək qardaşını xilas etmək üçün özünü odun-alovun düz ortasına atdı. Təəssüflər olsun ki, nəticədə Yasin də minaya düşdü. Asif qazi olarkən Yasin qardaşının gözləri önündə müqəddəs Şəhidlik zirvəsinə yüksəldi...

Yusif isə qazi qardaşının da, şəhid qardaşının da qisasını döyüş meydanında sonadək alırdı. "Allah şahidim olsun ki, əlimdəki bu süngüylə onlara qan udduracağam, onların torpaqlarımıza dikilən gözlərini oyacağam" deyib süngüsünü göstərən cəngavər sona qədər qəhrəmanlıq nümayiş etdirmiş və düşmənlərin qorxulu yuxusuna, kabusuna çevrilmişdi. Nəhayət, Vətən müharibəsi



Azərbaycanımızın şanlı və parlaq qələbəsi ilə başa çatdı. Yusif qarşılığını istəməsə də onun bu müharibədə göstərdiyi rəşadət qarşılıqsız qalmadı. Hər qaziyə, hər müharibə iştirakçısına və hər şəhid ailəsinə qayğı ilə, hörmətlə yanaşan və böyük dəyər verən Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyev sağlığında Yusifi Azərbaycan hərbçiləri arasında ən ali ordenlərdən olan "Azərbaycan Bayrağı" ordeni, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif etdi. Eyni zamanda o, Baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə də təltif olundu.

Vətən müharibəsi Yusifin və onun sıralarında qəhrəmancasına vuruşduğu rəşadətli Azərbaycan Ordusunun parlaq qələbəsi ilə bitdikdən sonra ailəsindən həm qazi, həm şəhid verən Yusif müharibənin ona bəxş etdiyi bütün əzablara və sarsıntılara mərdliklə sinə gərərək hərbi xidmətini davam etdirdi. O, indi doğma Xocavənddə, vətəni Azərbaycanda adı dillər əzbəri olmuş bir qəhrəman idi. Onun cənab Prezidentimiz tərəfindən təltif olunması bütün Xocavənddə az qala bir bayrama çevrilmişdi. Qəhrəmanımızın şəkli və adı sosial şəbəkələrdə paylaşılır, hamı bu el qəhrəmanını, vətən qəhrəmanını daha yaxından tanımaq istəyir, şərhlərində ondan qürur və fəxr hissi duyduğunu bildirirdi. Müəllimlər, pedaqoqlar sağlığında bu qəhrəmanımızın gənclərə böyük bir örnək olması üçün Yusifi məktəb tədbirlərinə dəvət edir, onun şagirdlərlə görüşünü təşkil edirdilər. Yusif tarix yazan, yeni reallıq yaradan, qalib olan bir ölkənin ən böyük qəhrəmanlarından birinə çevrilmişdi.

Lakin Yusif yenə də narahat idi. İndi nədən narahat ola bilərdi ki? Düşmənlər darmadağın edilmiş, geri çəkilmiş, Şuşamız azad olunmuş, ordumuz parlaq qələbə çalmışdı. Ancaq Qarabağın çox hissəsinin azad olunmasına baxmayaraq hələ də erməni işğalında qalan yerlərimiz var idi. Düşmən darmadağın olunsa da Vətən müharibəsindən hələ də tam dərsini ala bilməmişdi. Əksinə, get-gedə azğınlaşır, ordu yığır, böyük müharibələrə, "qisas" müharibəsinə hazırlaşırdı. Xankəndi, Xocalı, Ağdərə və nəhayət, Yusifin doğma diyarı Xocavəndin bir hissəsi isə intizarla Yusifin və onun kimi qəhrəman əsgərlərimizin yolunu gözləyirdi.

Nəhayət, 19 sentyabr 2023-cü ildə Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq və uzun müddət dillərdən düşməyəcək bir hadisə baş verdi. Rəşadətli Azərbaycan Ordusu qaniçən erməni separatçılarına verəcəyi ən qısa, lakin böyük və tarixi bir dərsini verdi o gün. Cənab Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında qəhrəman ordumuz erməni separatçılarını Qarabağdan tamamilə çıxarmaq üçün cəmi 23 saat 43 dəqiqəlik lokal xarakterli antiterror əməliyyatlarına başladı. Yusif həmişə olduğu kimi bu dəfə də ən öndə gedənlərdən biri idi. Qəhrəmanımız yeni yaranan və qərargahı onun doğma diyarı olan Xocavənddə yerləşən "Komando" Briqadasının kəşfiyyatçısı idi. Lakin hələ heç kəs xəbərdar deyildi ki, bu döyüş Yusifin son döyüşü, bu tapşırıq Yusifin son tapşırığı olacaq. Yusifin qismətinə son döyüş onun doğma torpağı olan Xocavənddə - Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində yazıldı. Sən demə, 3 yaşında çıxdığı doğma torpaqlara Yusif bu dəfə şəhid olmaq üçün qayıdırmış... Sən demə, onun əvvəli də, sonu da Xocavənd torpağı imiş... Doğum yeri də, şəhadət yeri də Xocavənd olacaqmış Yusifin. Qəhrəmanımız illərlə yolunu gözlədiyi torpaqların azadlığı üçün bu dəfə son damla qanına kimi vuruşdu. Düşmənləri bir-bir qırdı, biçdi, məhv elədi və zəfərə doğru addımladı. Lakin əfsuslar olsun ki, zəfəri görmək, separatçıların ağ bayraq qaldırdığını görmək ordenli qəhrəmanımıza qismət olmadı. Yusif 19 sentyabr 2023-cü ildə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində son damla qanını da doğma vətən torpağının üzərinə tökdü, torpağı şəhid qanı ilə müqəddəsləşdirdi və qəhrəmancasına Şəhidlik zirvəsinə ucaldı. Doğum yeri, şəhadət yeri Xocavənd olan Yusifin dəfn yeri də Xocavənd oldu. O, 21 sentyabr 2023-cü ildə Xocavənd şəhərciyində izdihamla torpağa tapşırıldı. Yusif şəhadətindən sonra da Ali Baş Komandanımızın diqqətindən kənarda qalmadı. 7 noyabr 2023-cü ildə o, şəhadətindən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edildi.

Onu da qeyd edim ki, şəhidimiz ailəli idi, 4 övlad - 2 qız, 2 oğul atası idi.

Yusif şəhid olduğu 19 sentyabr günündən əbədiləşdi, əbədi, uzun və cənnətlik bir həyatı yaşamağa başladı və indi də o həyatı yaşamağa davam edir. O, həm o dünyadakı cənnətinin ən gözəl bir guşəsində, həm də bu dünyada hər birimizin qəlbinin dərinliklərində qəhrəman kimi yaşayır. Azərbaycan xalqı, bizlər var olduqca, dünya durduqca da O, yaşayacaqdır!

**22.01.2024**